**UOT 745/749**

***Nəzakət Əhmədova***
***Azərbaycan Dövlət Mədəniyyət və***
***İncəsənət Universitetinin dissertantı***
***E-mail:*** neyzimi@gmail.com

# MÜASİR AZƏRBAYCAN GEYİMİNDƏ ETNİK ÜSLUB

**Xülasə**: Məqalədə müasir Azərbaycan geyim modasında etnik üslubun istifadəsində bəhs olunur. Qeyd edilir ki, modelyer-dizayner xalq kostyumu yaradıcılıq mənbəyi olaraq istifadə edərək, onları ruhlandıran formaya, biçim prinsiplərinə, ritmik quruluşuna, rənginə, parçanın fakturasına və ya icranın texniki üsullarına müraciət edirlər. Təhlilə müasir Azərbaycan modelyerləri olan Fəxriyyə Xələfova, Gülnarə Xəlilova, Natəvan Əliyev və Kəmalə Qurbaçovanın etnik üslubda işlədiyi geyim nümunələri cəlb edilmişdir.

**Açar sözlər**: Azərbaycan, müasir, geyim, moda, etnik, üslub, dizayner-rəssam, konstruktiv forma, rəng həlli.

Dizayn obyekti kimi müasir kostyum insanın şəxsiyyəti ilə birbaşa bağlıdır və bilavasitə onun mədəni anlayışlarını, psixoloji xüsusiyyətlərini, sosial aspektlərini, estetik seçimlərini, yaş xüsusiyyətlərini əks etdirir. Kostyum, bir şəxsin gündəlik həyatı, özünün həyata keçirilməsinin mühüm bir sahəsidir, tarixi və ya dövrün insan mahiyyətini əks etdirən ən doğru aynasıdır və tarixi sənədlərdən fərqli olaraq çox zaman öz dövrün nəzəriyyələri və konsepsiyalarından asılıdır.

Etnik və ya çox zaman folklor, rustikal, kantri adlandırılan üslub bir yaradıcılıq mənbəyi kimi xalq geyiminin əsas xüsusiyyətlərinə və qurulma qanunlarına əsaslanır. Bu halda, milli kostyumun etnoqrafik təyinatı həlledici əhəmiyyət daşımır. Üslub dünya xalqlarının milli geyimlərinin ruhunu əks etdirir və onlardan əsas xüsusiyyətləri – praktikliyi, gözəlliyi, məqsədəuyğunluğu, rahatlığı, funksionallığı, ritmi, materialın ifadəliliyini, dekorativliyi, çoxqatlılığı, sadəliyi və biçimin rasionallığını və s. əldə edir.

Müasir modada etnik üslub XX əsrin əvvəllərində, milli xalq geyiminə ümumxalq marağın formalaşması, onun öyrənilməsinə və dekorativ və tətbiqi

sənətin bir fenomeni kimi saxlanılmasına ehtiyacın anlaşılması ilə ortaya çıxmışdır. Adət ənənələrlə əlaqəli olan xalq geyimi xarici görünüşdən, yaşayış yerindən, bu və ya digər insanlara xas olan gözəllik duyğusundan ayrılmazdır və bir növ informasiya mənbəyi kimi xidmət edir. İnsanın həyat tərzi, əsas fəaliyyət növü kostyumda maddi ifadə tapır.

Milli geyim müasir geyim dəstlərinin zənginləşməsinə imkan yaradan tükənməz mənbədir. Keçmişimizdən miras qalan, milli ənənələrə köklənərək yeni, müasir elementlərlə işlənmiş geyim nümunələri zövq oxşayır və həmişə tələb olunmaqdadır. Etnik mədəniyyətlə sıx əlaqədə olan libaslarda xalq sənəti yeni ideyalara çevrilir – bu bir növ keçmişlə indiki zamanın dialoqudur. Əgər modada yeni obrazlar və elementlərin mənbəyi bitərsə, bu zaman moda da bitər. Bu gün dəbdə olan trend – ənənəvi milli geyim əsasında hazırlanmış geyimdir – o, gözəl, rahat və əlbəttə ki, dəbdə olandır.

Milli geyimin formaları təsadüfi yaranmayıblar, onlar xalqın həyat tərzi ilə şərtləşdirilmiş qanunauyğunluğa malikdirlər. Milli geyimin əsas mənası və qiyməti – onun demokratik, geniş funksional və məqsədəuyğun olmasıdır.

Azərbaycan moda dizaynerləri də etnik üslubda ideyaların tükənməz bir mənbəyini tapırlar. Etnik üslubda kostyumu layihələşdirən modelyerlər Azərbaycan milli geyiminə bütöv bir fenomen kimi müraciət edir və ya onun ayr-ayrı elementlərindən istifadə edirlər. Ölkənin müxtəlif bölgələrindəki milli geyimlər dizaynerlərin tükənməz yaradıcılıq mənbəyidir. Kəlağayı, arxalıq, araxçın, çəpkən və s. kimi gözəl, rahat və təkrarolunmaz nümunələrlə təmsil olunan milli geyimin qiymətli xəzinələri müasir moda tərəfindən götürülmüşdür.

Xalq kostyumu yaradıcılıq mənbəyi olaraq istifadə edərək, modelyer-dizayner onu ruhlandıran formasına, biçim prinsipləri, ritmik quruluşuna, rənginə, parçanın fakturasına və ya icranın texniki üsullarına müraciət edir.

Azərbaycan xalq geyimlərinin konstruktiv quruluşunun təhlili göstərir ki, onlar bir insan fiqurunun nisbətlərini nəzərə alaraq qızıl kəsim prinsipi əsasında qurulublar. Xalq ustaları intuitiv olaraq geyimin düzbucaqlı biçimindən istifadə edirdi ki, bu parça daha rasional istifadəsinə və parça hissələrini asanlıqla tikib-birləşdirməyə imkan verirdi. Milli kostyumun forması sakit, balanslı bir xarakter daşıyır və ümumiyyətlə düz üfüqi xətlərlə vurğulanmış düz siluetdir və tamın hissələrə bölünməsinin mütənasibliyini əks etdirir. İşin yekun nəticəsi modelyerin mənbəyə nə dərəcədə yaxın olduğu ilə bağlı olduğundan asılıdır.

Müstəqil yaradıcılığın üçün əvəzolunmaz şərti kimi həmişə milli kostyumun birbaşa surətin çıxartma yoluna riayət etməmək tələbi çıxış edir. Ənənəvi elementlərin mexaniki istifadəsi, mənbənin imitasiyası, dizaynerin işini hörmətdən salan iflasa gedən bir yol deməkdir. Müasir bir kostyumun etnik geyimlə əlaqəsi daha incə, assosiativ prinsip əsasında qurulmalıdır. Müasir modellərin ən yaxşı nümunələri göstərir ki, xalq geyiminin forması müasir kostyuma ümumiləşdirilmişdir tərzdə çevrilir. Milli geyimin surətinin mənimsənilməsi ideyanın ehtiyatlı, incə və dəqiq bir şəkildə həyata keçirilməsi, müasir kostyumun yeni bir həllinə çevrilir.

Modelyer-rəssam, xalq kostyumunun mənəvi, maddi, mədəni və estetik mahiyyətini hiss edir, modellərinin prototiplərini həmişə konkret milli nümunələr –

araxçın, arxalıq, kəlağayı və s. təşkil edirlər. Etnik üslubda hazırlanmış kostyum üzvi surətdə milli geyim üçün ənənəvi olan tərtibat ünsürləri ilə – baş örtükləri, dəri və ya toxunmuş kəmərlərlə, trikotaj məmulatlarla, sadə rahat ayaqqabılarla və ənənəvi zinət əşyaları ilə tamamlana bilər.

Kostyumda örpəyin istifadəsi zahiri görünüşün yumşaq formasını yaratmağa kömək edir. Çox zaman örpəklərdən etnik üslubda olan bütöv kolleksiyalar yaradılır – koftalar, donlar, ətəklər və s. Ənənəvi milli mədəniyyət növləri sırasına basmanaxış texnikasında bəzədilmiş ("isti batik" üsuluna bənzər) Azərbaycan milli baş örtüyü olan kəlağayılar daxildir. Kəlağayı üzərinə tətbiq edilən naxışlar dəqiq şəkildə müəyyən edilmiş rənglərlə boyanır və əsrlər boyu bir tarixə və müxtəlif semantikaya malikdirlər. Bu naxışlar qəliblərdə yerləşdirilən və mədəniyyət cəmiyyətinin nümayəndələri tərəfindən asanlıqla şifrələnən kodlardır [1].

Belə bir ornamentasiya Azərbaycanın aparıcı moda dizaynerlərindən olan Fəxriyyə Xələfovanın "Şərq maqnetizmi " kolleksiyasında əksini tapmışdır. Onun 2014-cü ilin dekabr ayında Parisdə təşkil olunmuş "Oriental Fashion Show" adlı Şərq moda nümayişində unikal kəlağayı bəzəkləri ilə tərtib edilmiş ipəkdən hazırlanan paltar nümayiş olundu.

Milli üslubda olan romantik libaslar və səlis biçimli orijinal ansambllar – bütün bunlar istedadlı modelyer Gülnarə Xəlilovanın modellərinin uğuru kimi qiymətləndirilir.

Hər bir modelyerin öz siması var. Öz yaradıcılıq fikirlərini G.Xəlilova bir qayda olaraq, yumşaq, plastik siluet əmələ gətirən incə parçalara üstünlük verir. Modelyer hər zaman milli geyimi müasir dizaynda verməyə çalışır, klassikanı müasir üslubla birləşdirməyə can atır. Onun yaratdığı qadın gözəlliyi idealını Azərbaycan qadınının müasir surəti təşkil edir. Reallıqda əks olunan cəlbedici orijinal dizayna malik olan adın geyim dəstlərinin konstruktiv quruluşu, faktura müxtəlifliyi və ahəngdar rəng həlli özündə bütün rəng spektrlərini cəm edən gözəl xalçalar kimi əsrarəngizdir.

Onun etnik üslubda işlədiyi hər bir modelində Azərbaycan milli geyim dəstinin ayrılmaz elementləri olan arxalığın, çərkənin müxtəlif interpretasiyaları müasir səslənir. Modellərin koloristik həlli xüsusi vurğu ilə onların xalq geyimi ilə yaxınlığı qeyd edir. Rəng, konstruksiya xətlərinin hərəkətini vurğulayaraq, formanı əmələ gətirir, kostyumda dekorativ aksentləri yerləşdirir. Rəng vasitəsi ilə rəssam, lirik təmkinliyi ilə diqqəti cəlb edən milli kostyumun emosional gücünü əks etməyə nail olur.

İstedadlı modelyer-rəssam olan Natəvan Əliyeva qadın və sənətkar imicini xüsusi zövqə, yüksək estetik mədəniyyətə malik, fərdiliyi və ictimaliyi hiss edən fiziki və mənəvi harmoniya təşkil edir. Yumşaq formalar, incə xətlər, dəbli detallar və axıcı parçalar – bütün bunlar hər bir qadını gözəlləşdirir və sevinc bəxş edir. Öz işlərində məhz bu məqsədi güdən modelyer, üstünlüyü etnik üslublu libaslara verir. N.Əliyeva daima kökümüzə nəzər salıb ondan bəhrələnməyi üstün tutur. Xüsusi vurğu Azərbaycan milli baş örtüyü olan kəlağayıların, şalların müxtəlif konfiqurasiyalı örtmə üsullarına və milli xalça naxışlı toxunma corabların uzunboğaz ayaqqabılara çevrilmiş variantlarına verən modelyer, öz moddelərini

zərgərlik məmulatları ilə zənginləşdirir. Modelyer-rəssamın keçmişimizdən miras qalan, milli ənənələrə köklənərək yeni, müasir üslubda işlənmiş geyim nümunələri zövq oxşayır və həmişə tələb olunmaqdadır.

Modelyer-rəssam Kəmalə Qurbaçovanın "Zamanın yaddaşı" adlı geyim kolleksiyası da bu səpkidədir. Belə ki, burada istifadə olunan geyim dəstlərində xalqımızın əsrlər boyu nəsildən-nəsilə ötürdüyü konstruktiv forma və dekorativ tərtibat, o cümlədən faktura müxtəlifliyi və zəngin rəng seçimi, müasir moda durumunda mövcud olan kostüm stilinin iddialı formalarında təzahür tapır ki, o da gözəlliyin cismani qavranılmasına gətirib çıxarır.

"Zamanın yaddaşı" adlı geyim kolleksiyasının ən vacib və nəzərə çarpan cəhəti ondan ibarətdir ki, burada Azərbaycan mədəniyyətinin və incəsənətinin ən zəngin sənət nümunələrindən biri olan xalça nümunələrinin kompozisiya quruluşundan və ornamental elementlərindən istifadə edilmişdir.

Xalça təkcə interyeri bəzəyə bilən hər bir gözəl dekorativ əşya deyil, həm də simvolik dilin xüsusi formasıdır ki, onun vasitəsilə əcdadlarımızın həyatı və dünya sirləri haqqında məlumat daşınır. Elə bir məlumat ki, o, tətbiq olunan hər bir əşyanın üzərini bəzəmək imkanına malik olduğu halda, həmin məmulatın həm estetik, həm də əməli funksiyalarını bir qədər də qabardır, onları müəyyən informasiya daşıyıcılarına çevirir. Beləliklə, eyni mövzu altında birləşmiş müxtəlif formalı, biçimli və bədii tərtibatlı geyim kolleksiyasının əsas qayəsini burada istifadə olunmuş ornamental xalça motivləri təşkil edir.

Müasir geyimlə ənənəvi milli Azərbaycan geyimlərinin sintezini əks etdirən kolleksiyanı yaratmağa müəllifi Azərbaycan dekorativ-tətbiqi sənət əsərlərinin dekorativ əsasını təşkil edən ornamental motivlər sövq etdi. Ziyafət üçün nəzərdə tutulan modellərdə istifadə olunan müasir konstruktiv formanın da əsasını Azərbaycan milli geyim elementləri olan çaxçur, köynək və tuman təşkil edirlər. Bunların müasir interpretasiyası modellərin nəfis işlənməsində verilmişdir.

Geyim ansambllarına daxil edilmiş müxtəlif aksessuarlar da kolleksiyanın mövzusuna, təyinatına və estetik görünüşünə müvafiq düşünülüb. Modelləri tamamlayan toxunma papaqlar, çantalar, makrame texnikasında işlənmiş bəzək əşyaları seçilmiş mövzunun açılmasında həlledici rol oynayır.

Geyim kolleksiyasında istifadə olunan milli ornamental xalça motivləri, rəssam-modelyerlərin dizayner təxəyyülünün formalaşması və inkişafında müsbət rol oynaya biləcək bir amil olaraq, onların gələcək işlərində uğurla tətbiq oluna bilər və müasir Azərbaycan modasının müxtəlif istiqamətlərdə istifadə oluna bilər.

Beləliklə, əsrlərdən bəri sevilə-sevilə qorunub saxlanılan qədim xalçalarımızı bəzəyən naxışlar, müasir geyim modellərində yeni həyat, yeni nəfəs əldə edərək, xalq sənətimizin bu zəngin irsini gələcəkdə də təbliq etmək imkanını əldə edir.

Etnik üslub çox zaman müasir modada təmiz şəkildə deyil, üslubların qarışığında istifadə olunur. Eklektisizmin təmayülü yaxın vaxtlarda daha da güclənmiş və peşəkarların "fyujn" termini ilə ifadə edilərək, hər şeyin qarışığını, eklektikanı ifadə edir. Müasir stilistlərin sevimli üsulunu birləşə bilməyənləri birləşdirmək və beləliklə yeni ideyaların axtarışı tükənməz imkanlar tapmaq təşkil edir. Etnik üslubu üzvü surətdə romantik, klassik və idman üslubu ilə birləşdirilə

bilər. Moda artıq şərtləri diktə etmir, və hər kəsə öz zövqünə və nisbət hissinə diqqəti yönəldən öz fərdi, unikal seçimini etməyə imkan verir. XX əsrin sonu - XXI əsrin əvvəllərində incəsənət məlum olan sərhədləri genişləndirdi və üslubun tərkib hissəsi kimi eklektizm və stilizasiyanın yeni bir anlayışına yol açdı.

**Ədəbiyyat:**


1. http://novosti.az/culture/8182.html
2. http://www.allwomens.ru/3618-yetnicheskij-stil-v-istorii-mody.html
3. https://www.trend.az/life/style/2421336.html
4. Гасымов Р. Натаван Алиева: «Мое призвание - быть дизайнером одежды». http://ann.az/ru/natavan-alieva-moe-prizvanie-byt-dizaynerom-odezhdy-intervyu/
5. Вахабова Н. Натаван Алиева: Proje // “Nargiz magazine”. Журнал о моде,искусстве и красоте. http://www.nargismagazine.az/67690



**Назакет Ахмедова**


**Этнический стиль в современном азербайджанском костюме**


**Резюме**

В статье рассматривается использование этнического стиля в современной азербайджанской одежде. Отмечается, что модельер-дизайнер использует народный костюм как источник творчества, ссылаясь на форму, принципы формата, ритмическую структуру, цвет, кусок текстуры или технику исполнения. Анализу подвергаются модели одежды, выполненные современными азербайджанскими модельерами Фахрией Халафовой, Гульнарой Халиловой, Натаван Алиевой и Камалей Гурбачовой в этническом стиле.



**Ключевые слова:** Азербайджан, современный, одежда, мода, этнический, стиль, дизайнер-художник, конструктивная форма, цветовое решение.



**Nazaket Ahmedova**


**Ethnic style in the modern Azerbaijani costume**


**Summary**

The article considers the use of ethnic style in modern Azerbaijani clothes. It is noted that the modeller-designer uses folk costume as a source of creativity, referring to the form, and the principles of the format, the rhythmic structure, the color, and the piece of texture or the technique of execution. The analysis is made on the models of clothes made by modern Azerbaijani fashion designers Fakhriya Khalafova, Gulnara Khalilova, Natavan Aliyeva and Kamala Gurbachova in ethnic style.



**Keywords:** Azerbaijan, modern, clothing, fashion, ethnic, style, designer-artist, constructive form, color solution.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 22.02. 2018 Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 27.02.2018Məqalənin çapa qəbul olunma tarixi: 05.04.2018**

**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfədoktoru, dosent Mehriban Novruzova**

**ADMİU-nun Elmi Şurasının 06 iyul 2018-ci il, 09 saylı qərarı ilə çap olunur**